AVRASİYA
ƏMƏKDAŞLIQ
FONDU

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

# «AHT Platforması fəaliyyətdə» layihəsi

Sabit Bağırov,
layihə koordinatoru

Bakı, Holiday İnn oteli
28 İyul 2017

# «AHT Platforması fəaliyyətdə» layihəsi

**Ümumi məqsəd:**

Açıq Hökumət Tərəfdaşlığının Azərbaycanda inkişafının sürətləndirilməsi

**Xüsusi məqsədlər:**

A. AHT Platformasının fəaliyyəti üçün institusional imkanların yaradılması

B. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının icrası vəziyyətinin monitorinqi

# Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı

-Planın hazırlanmasında Vətəndaş Cəmiyyəti təmsilçiləri fəal iştirak etmişlər;

-Plan 11 mühüm sahə üzrə 59 vacib tədbiri əhatə edir;

-Planın hər tədbiri üzrə qiymətləndirmə indikatoru, icraçı (və ya tövsiyə edilən), icra müddəti qeyd edilir;

-Planın sonuncu bölməsi planın icrasının monitorinqi tədbirlərini əhatə edir

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**1. AHT Platformasının 2017 – 2020 illər üçün Strateji Fəaliyyət Planının hazırlanması və vətəndaş cəmiyyəti qurumlarına təqdim edilməsi**

- Ekspert Qrupunun təşkili. Bu qrupa platforma üzvlərindən müvafiq təcrübəsi olan mütəxəssislər seçiləcək;
- Strateji Fəaliyyət Planı layihəsinin hazırlanması və Platforma şəbəkəsində müzakirəsi;
- Strateji Fəaliyyət Planının dəyirmi masada bütün maraqlı tərəflərə təqdim edilməsi;
- Strateji Fəaliyyət Planının Mediada təqdim edilməsi

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**2. AHT Platformasının maddi-texniki bazasının yaradılması**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 4.1.3 bəndinə əsasən həyata keçirilir. Fəaliyyət çərçivəsində Platforma üçün minimal komplektdə mühüm avadanlıqlar alınıb

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**3. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflər paketinin hazırlanması.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 4.1.2 bəndinə əsasən icra edilib. Bu fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- Ekspert Qrupunun təşkili;
- Təkliflər Paketi layihəsinin hazırlanması və Platforma şəbəkəsində müzakirəsi;
- Təkliflər Paketi layihəsinin Platformanın toplantısında müzakirəsi və təsdiq edilməsi;
- Təkliflər Paketinin dəyirmi masada bütün maraqlı tərəflərə təqdim edilməsi;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**4. Milli Məclisdə dövlət büdcəsinin layihəsi ilə bağlı müzakirələrdə vətəndaş cəmiyyəti institutlarının iştirakının qiymətləndirilməsi**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 5.2 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər icra edilib:

- Milli Məclis Komitələri və Vətəndaş Cəmiyyəti qurumları arasında sorğunun keçirilməsi;
- Hesabatın hazırlanması və vəziyyətin yaxşılaşdırılması üçün Milli Məclisə müraciət edilməsi;
- Dəyirmi masada Hesabatın təqdimatı və müzakirəsi;
- Mediada vəziyyətin aşkarlanması.

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

5. **Dövlət büdcəsinin icrası barədə illik hesabat və Azərbaycan Respublikası Hesablama Palatasının müvafiq rəyinin ictimaiyyətə açıqlanması məqsədi ilə ictimai müzakirənin keçirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 5.3 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- Dövlət büdcəsinin icrası barədə illik hesabat və Azərbaycan Respublikası Hesablama Palatasının müvafiq rəyinin ictimaiyyətə açıqlanmasına dair dəyirmi masanın Gündəliyinin hazırlanması və Hesablama Palatası ilə razılaşdırılması;
- Dəyirmi masanın hazırlanması və keçirilməsi;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**6. Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının illik maliyyə hesabatlarının dərc edilməsi səviyyəsinin qiymətləndirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 5.5 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər icra edilib:

- İllik Maliyyə və Fəaliyyət hesabatlılığına dair SOCAR, AZƏRENERJİ, AZƏRSU, AZAL, Azərbaycan Dəmir Yolları şirkətlərinin daxili normativ sənədlərinin təhlili və bu sənədlərin qanunvericiliyə uyğunluğunun araşdırılması;
- SOCAR, AZƏRENERJİ, AZƏRSU, AZAL, Azərbaycan Dəmir Yolları şirkətlərinin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili;
- qeyd edilən şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlılığının yaxşılaşdırılmasına dair təkliflər paketinin hazırlanması;
- Araşdırma nəticələrinin və təkliflər paketinin dəyirmi masada müzakirəsi;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

7. **Hesablama Palatasının maliyyə nəzarəti obyektlərində 2016-cı ildə apardığı maliyyə nəzarəti tədbirləri barədə ictimaiyyətin məlumatlandırılması məqsədi ilə ictimai müzakirənin keçirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 5.7 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- Hesablama Palatasının **maliyyə nəzarəti tədbirləri barədə** ictimaiyyətin məlumatlandırılması ilə əlaqədar dəyirmi masanın Gündəliyinin hazırlanması və Hesablama Palatası ilə razılaşdırılması;
- Dəyirmi masanın hazırlanması və keçirilməsi;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**8. Bələdiyyə qulluqçularının etik davranış qaydaları barədə məlumatlandırılması və peşəkarlığının artırılması sahəsində vəziyyətin qiymətləndirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 6.2 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- Bələdiyyə qulluqçuları üçün etik davranış qaydaları, hüquqi biliklərin və peşə bacarıqlarının artırılması üzrə təlimlərin keçirilməsi, bununla bağlı izahedici məlumatların və bələdçi qaydaların hazırlanması və internet resurslarda yerləşdirilməsi ilə əlaqədar vəziyyətin təhlili və hesabatın hazırlanması;

- Bələdiyyə qulluqçularının etik davranış qaydaları barədə ictimaiyyətin məlumatlandırılması ilə əlaqədar vəziyyətin təhlili və hesabatın hazırlanması;

- Bələdiyyə üzvlərinin etik davranış qaydalarının hazırlanması və qəbul edilməsi ilə əlaqədar vəziyyətin təhlili və hesabatın hazırlanması;

- Dəyirmi masanın hazırlanması və keçirilməsi;

- Vəziyyətin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanması və aidiyyatı olan dövlət qurumlarına təqdim edilməsi;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**9. Mədən sənayesində şəffaflığın səviyyəsinə dair ictimai müzakirənin (dəyirmi masanın) keçirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 7-ci bəndinə və MHŞT Çoxtərəfli Qrupun 2017-ci il üzrə Fəaliyyət Planına əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- 4 rayonda (Şirvan, Səlyan, Neftçala və Hacıqabul şəhərləri) yerli ictimaiyyətin MHŞT barədə məlumatlandırılması. Bu məqsədlə dəyirmi masalar keçirilib;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**10. "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi prosesinin qiymətləndirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 8.6 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- 9 dövlət qurumunun rəhbər tutduğu fəaliyyət prinsipləri və şəffaflıq standartları təhlil ediləcək və "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartları ilə müqaisə edilib;
- Əldə edilmiş tapıntılar bütün maraqlı tərəflərin iştirakı ilə dəyirmi masada müzakirə edilib;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

**11. Sahibkarların qarşılaşdıqları problemlərin həlli və onların müraciətlərinə baxılması məqsədi ilə yaradılmış Appelyasiya Şuralarının fəaliyyətinin qiymətləndirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı (MFP)-nın 8.7 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- Appelyasiya Şuralarının fəaliyyətinin araşdırılması məqsədi ilə 50 kiçik sahibkar arasında sorğu keçiriləcək və onların bu institutdan istifadə etmələri müəyyənləşdirilib;

- 4 Biznes assosiasiyasının Appelyasiya Şuralarının fəaliyyəti barədə rəyi öyrənilib;

- Appelyasiya Şuralarının fəaliyyətinə dair rəsmi hesabatlar təhlil edilib;

- Araşdırmaların nəticələri dəyirmi masada müzakirə edilib;

- Mediada təkliflərin aşkarlanıb.

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

12. **İqtisadi sahədə həyata keçirilən islahatlar (Strateji Yol Xəritələri), onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədi ilə 4 dəyirmi masanın keçirilməsi.**

Bu fəaliyyət Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyə Planı(MFP)-nın 8.9 bəndinə əsasən icra edilir. Fəaliyyət çərçivəsində aşağıdakı işlər görülüb:

- 4 Strateji Yol Xəritəsini müzakirəsinə həsr ediləcək dəyirmi masalar keçirilib. Müzakirə ediləcək Strateji Yol Xəritələri: 1) Milli iqtisadiyyat perspektivi; 2) Maliyyə xidmətlərinin inkişafı; 3) Kiçik və orta sahibkarlıq; 4) Turizmin inkişafı;

# «AHT Platforması fəaliyyətdə» layihəsi üzrə fəaliyyətlər

Keçirilmiş tədbirlər

1) 17 Dəyirmi Masa keçirilib (bunlardan 4 rayonlarda):

- İştirakçıların ümumi sayı = 462;
- İştirakçılar:

  - Platformaya üzv olan və olmayan QHT-lər;

  - Dövlət Qurumlarının nümayəndələri = 14 nəfər;

  - Xarici qonaqlar = 6 nəfər;

2) 8 İnternet TV müzakirələri;

3) EDF Veb-səhifəsində xüsusi bölmə yaradılıb və layihə ilə əlaqədar materiallar burada yerləşdirilib:

http://edf.az/ts_general/azl/layihe/OGPP/index.htm

# TƏŞƏKKÜRLƏR